**AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ**
**P O L İ S   A K A D E M İ Y A S I**

**KAFEDRA: “CİNAYƏT HÜQUQU”**

**FƏNN: “CƏZA-İCRA HÜQUQU”**

# M Ü H A Z İ R Ə

**MÖVZU № 2. “Cəzaların icrası qanunvericiliyi”**

Vaxt - 4 saat
Mühazirə - 2 saat
Seminar - 2 saat


**TƏRTİB ETDİ:**

“ Cinayət hüququ” kafedrasının baş müəllimi,
polis polkovniki, h.ü.f.d. **Rəsul Rüstəmov**

“Cinayət hüququ” kafedrasının müəllimi,
polis polkovnik-leytenantı **Şamxal Kərimov**


Mühazirə kafedranın iclasında müzakirə edilib və bəyənilib.

Protokol № . ___________ 2017-ci il.

**B A K I - 2 0 17**

# P L A N:

**GİRİŞ:**

1. Cəzaların-icrası qanunvericiliyinin anlayışı, məzmunu, vəzifələri və formaları.
2. Cəza-icra hüquq normalarının anlayışı, məzmunu, növləri və quruluşu.
3. Cəza-icra hüquq münasibətləri.

**NƏTİCƏ:**

## Ə D Ə B İ Y Y A T:


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2017.
2. Azərbaycan Respublikasının CİM. Bakı, 2017
3. Azərbaycan Respublikasının CM. Bakı, 2017
4. Cəza-icra hüququ. Şərhlər və sxemlər. Dərs vəsaiti. B., 2004.
5. Cəza-icra hüququ. Dərs vəsaiti. Bakı, 2007
6. F.Y.Səməndərov. Cinayət hüququ. Ümumi hissə. Dərslik. Bakı,2017
7. M.H.Hümbətov. Cəza və onun icrası., "Hüquq ədəbiyyatı". Bakı,1999.
8. Rəhimov.İ.M.Cinayət və cəzanın fəlsəfəsi. Bakı, 2014
9. Rəhimov.İ.M.Cinayətkarlar və cəza. Bakı, 2015
10. M.H.Hümbətov.Məhkumun məlumat kitabı. "Hüquq ədəbiyyatı". Bakı,2003
11. İ.B.Ağayev Azərbaycan Respublikasının cəza-icra hüququ. Ümumi hissə. Bakı, 2007
12. İ.B.Ağayev Azərbaycan Respublikasının cəza-icra hüququ. Xüsusi hissə. Bakı, 2011
13. M.H.Hümbətov, N.Mustafayev. Azərbaycan Respublikasında məhkumların hüquqi vəziyyəti. Bakı, 2010
14. Учебник. Уголовно-исполнительное право. Под ред. В.И.Селиверстова. М., 2000.
15. Рагимов И.М. "Теоретические и практические проблемы исправительно-трудового воздействия". Б., 1981.

# G İ R İ Ş

“Cəza-icra hüququ” fənninin öyrənilməsində ən aktual mövzulardan biri “Cəzaların icrası qanunvericiliyi”dir. Bu onunla izah olunur ki, biz bu institutu nəzərdən keçirərkən kursun bütün mövzularının öyrənilməsi üçün mühüm əhəmiyyət kəsb edən ümumi müddəalarla tanış olacağıq.

Burada Azərbaycan Respublikasının qanunvericilik sisteminin tərkib hissəsi olan cəzaların icrası qanunvericiliyinin anlayışı, mahiyyəti, bu hüquq sahəsinin normaları, onların təsnifatı, habelə cəza-icra hüquq münasibətləri və onların tərkib elementləri barədə geniş biliklər əldə edəcəyik. Mövzunun tədrisi zamanı bu qanunvericilik sahəsində aparılan islahatlar da diqqət mərkəzində olacaqdır.

Nəhayət, bu mövzuda respublikamızın cəzaların icrası qanunvericiliyinin tərkib hissəsi olan beynəlxalq normativ hüquqi aktlar və onların əsas tələbləri, qanunvericiliyimizin təkmiləşdirilməsində onların rolu və əhəmiyyəti kimi məsələlər araşdırılacaq.

**Sual I.**

**Cəzaların icrası qanunvericiliyinin anlayışı, məzmunu, vəzifələri və formaları**

Hüquq nəzəriyyəsində qanunvericiliyin bu və ya digər sahəsinin dar və geniş mənada izahı hamı tərəfindən qəbul edilmişdir. **Dar mənada qanunvericilik sahəsi** dedikdə, yalnız onun hüquqi tənzimləmə predmetinə aid olan ictimai münasibətləri tənzimləyən qanunların məcmusu başa düşülür. Müvafiq olaraq, **dar mənada cəzaların icrası qanunvericiliyi** dedikdə, cəzanın icrası və çəkilməsi və məhkumlara islah etmə vasitələrinin tətbiqi prosesində yaranan ictimai münasibətlərin bütün kompleksini tənzimləyən qanunlar sistemi başa düşülür.

Keçmiş SSRİ adlı qurum süqut etdikdən sonra Respublikamızın cəzaların icrası qanunvericiliyində əsaslı dəyişikliklər baş vermişdir. Onun tərkibindən SSRİ-dən miras qalmış islah-əmək qanunvericiliyinin əsasları və cəzaların icrasını tənzimləyən digər normativ hüquqi aktlar çıxarılmışdır. Hazırda 1 sentyabr 2000-ci il tarixdən qüvvədən düşmüş islah-əmək qanunvericiliyini təşkil edən bütün normativ hüquqi aktların günün tələblərinə cavab verən müddəaları, bölmələri, fəsilləri və ayrı-ayrı normaları 14 iyul 2000-ci ildə qəbul edilmiş və 1 sentyabr 2000-ci ildən qüvvəyə minmiş yeni Cəzaların İcrası Məcəlləsinə daxil edilmiş, qanunvvericiliyin bu sahəsinin normativ təminatında yaranmış müəyyən hüquq boşluğu aradan qaldırılmışdır.

Cəzaların icrası qanunvericiliyi sisteminin əsasını təşkil edən Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi Azərbaycan Respublikasının

Cinayət Məcəlləsinin 42-ci maddəsində təsbit edilmiş on üç cəza növünün hamısının icra edilməsi qayda və şərtlərini tənzimləyir.

**Geniş mənada qanunvericilik sahəsi** dedikdə, onun predmetinə aid olan ictimai münasibətləri tənzimləyən bütün normativ aktların (qanunların və onların əsasında qəbul edilmiş digər normativ hüquqi aktların) məcmusu başa düşülür. Məlumdur ki, cəzanın icrası və məhkumlara islah təsiri (islah etmə) tədbirlərinin tətbiqi prosesində yaranan ictimai münasibətləri tənzimləyən normativ aktlar sisteminə qanunlardan başqa, həm də Azərbaycan Respublikası Prezidentinin fərmanları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları, Ədliyyə Nazirliyinin və Müdafiə Nazirliyinin normativ hüquqi aktları, müvafiq icra orqanlarının birgə qəbul etdikləri normativ hüquqi aktlar daxildir. Göstərilən aktlar qanunun müddəalarını konkretləşdirir, onun göstərişlərini dəqiqliyi ilə göstərir, təşkilati tədbirləri müəyyən edir, qanunun tələblərinin yerinə yetirilməsini təmin edir.

Ədliyyə Nazirliyi, Müdafiə Nazirliyi və onlarla birgə digər icra orqanları tərəfindən qəbul edilən normativ hüquqi aktlar icra (prosessual) xarakteri daşıyır və bir qayda olaraq, məhkumlar üzərinə əlavə vəzifələr qoya və ya onların hüquqlarını məhdudlaşdıra bilməz. İcra orqanlarının qəbul etdikləri aktlar vətəndaşların hüquqlarına və qanuni mənafelərinə toxunduğu hallarda, bu orqanlar müvafiq səlahiyyətlərə malik olmalıdırlar. Qeyd edilən orqanlar belə aktları qəbul edərkən isə, onları Ədliyyə Nazirliyində qeydiyyatdan keçirməli və onları rəsmi olaraq hamının nəzərinə çatdırmalıdırlar.

Beləliklə, **geniş mənada cəzaların icrası qanunvericiliyi** dedikdə, cəzanın icrası və çəkilməsi və məhkumlara islah təsiri tədbirlərinin (islah edilmə vasitələrinin) tətbiqi prosesində yaranan ictimai münasibətlərin bütün kompleksini tənzimləyən normativ hüquqi aktlar sistemi başa düşülür.

Azərbaycan Respublikası CİM-in 1-ci maddəsinə əsasən Azərbaycan Respublikasının cəzaların icrası qanunvericiliyi Cəzaların İcrası Məcəllə-sindən, Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən

ibarətdir. Elə yerindəcə qeyd etmək lazımdır ki, mili normativ hüquqi aktların normaları ilə beynəlxalq aktların normaları arasında ziddiyyət yaranarsa, beynəlxalq aktların normaları üstün hüquqi qüvvəyə malikdir.

Hazırda Azərbaycan Respublikasında cəzaların icrasını tənzimləyən qanunvericilik sisteminə aşağıda qeyd olunan normativ hüquqi aktlar daxıildir:

1) Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi və Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilən və cəzaların icrasını tənzimləyən, məhkumların hüquqi vəziyyətini təmin edən digər qanunlar;

2) Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları;

3) Azərbaycan Respublikası Nazirlər Kabinetinin cəzaların icrası ilə əlaqədar qərar və sərəncamları;

4) cəzaların icrası həvalə edilmiş müəssisə və orqanlara rəhbərliyi həyata keçirən Ədliyyə Nazirliyinin və Müdafiə Nazirliyinin özlərinin, habelə qanunvericilik tələb etdiyi hallarda digər icra orqanları ilə birgə qəbul etdikləri normativ hüquqi aktlar.

Cəzaların icrası qanunvericiliyinin mənbələrinə gəldikdə, buraya cəzaların icrasını tənzimləyən qanunvericilik sistemini və əsas qanun olan Azərbaycan Respublikasının Konstitusiyasını da daxil etmək lazımdır.

Azərbaycan Respublikasının Konstitusiyasının 148-ci maddəsinə əsasən, dövlətin tərəfdar çıxdığı beynəlxalq müqavilələr qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir. Bu konstitusiya müddəası CİM-in 1-ci maddəsində də təsbit edilmişdir. Buna görə də Azərbaycan Respublikasının tərəfdar çıxdığı, məhkumlarla rəftara həsr olunmuş beynəlxalq müqavilələr cəzaların icrası  qanunvericiliyinin tərkib hissəsi hesab edilir. Bu aktlara BMT-nin "Məhbuslarla minimal standart davranış qaydaları"nı, Avropa Şurasının "Avropa Penitensiar Qaydaları"nı və s. misal göstərmək olar.

Cəzaların icrası qanunvericiliyinin vəzifələri CİM-in 2.2-ci maddəsində öz əksini tapmışdır. Orada qeyd olunur ki, CİM-in vəzifəsi cəzaların icrası və çəkilməsi qaydalarını və şərtlərini tənzimləməkdən, məhkumların islah

edilməsi vasitələrini müəyyən etməkdən, məhkumların hüquq və azadlıqlarını, qanuni mənafelərini qorumaqdan ibarətdir.

Cəzaların icrası qanunvericiliyinin qeyd edilən vəzifələri ümumi vəzifələr sayılır və onlar müvafiq qaydada icra yolu ilə cəzanın məqsədlərinə nail olunmasının təmin edilməsinə yönəlmişdir. Bu anlayışda cəzanın məqsəd-lərinin vahidliyi, əlaqəliliyi və onun icrasının vəzifələri ifadə olunmuşdur.

Cəzaların icrası qanunvericiliyinin qarşısında duran vəzifələr cəzanı icra edən müəssisə və orqanlar tərəfindən yerinə yetirilir. Onlar cəzanın növü və müddəti haqqında məhkəmə hökmünün göstərişlərinin icrasını təmin etməyə, məhkumların islah edilməsinə nail olmağa, həm məhkumlar tərəfindən, həm də digər şəxslər tərəfindən törədilə biləcək yeni cinayətlərin qarşısını almağa borcludurlar. Cəzanı icra edən müəssisə və orqanların bu vəzifələrini geniş mənada ədalət mühakiməsinin funksiyalarından birinin – məhkumların islah edilməsinin həyata keçirilməsinin təmin edilməsi kimi izah etmək olar.

Nəhayət, cəzaların icrası qanunvericiliyinin vəzifələri cəzanın ayrı-ayrı növlərini icra edən müəssisə və orqanlar üzərinə daha konkret vəzifələr qoyulması yolu ilə yerinə yetirilir. Misal üçün, müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cinayət cəzalarını icra edən penitensiar müəssisələr, bir qayda olaraq, məhkəmə hökmlərinin icrası üzrə aşağıdakı vəzifələri yerinə yetirirlər:

- cəzanın icrası zamanı hüquq qaydasını və qanunçuluğu, cəzaçəkmə müəssisələrinin işçi heyətinin, bu müəssisələrin ərazisində olan vəzifəli şəxslərin və vətəndaşların təhlükəsizliyini təmin etmək;
- məhkumları əməyə cəlb etmək, habelə onların ümumi orta və peşə təhsilini təşkil etmək;
- məhkumların sağlamlığının qorunmasını təmin etmək;
- əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlara bağlı qalmış cinayətlərin açılmasında kömək etmək və s.

Beləliklə, cəzaların icrası qanunvericiliyinin vəzifələri ümumi və konkret vəzifələrdən ibarət olan müəyyən sistem yaradır. Bu vəzifələr cəzanı icra edən

müəssisələrin və orqanların vəzifələri olub, onların fəaliyyətində məhkumlara kompleks islah-tərbiyə təsiri tədbirlərinin tətbiqi yolu ilə yerinə yetirilir.

**Sual 2.**

**Cəza-icra hüququ normalarının anlayışı, məzmunu, növləri, quruluşu və tətbiqi**

Cəzaların icrası qanunvericiliyi qarşısında duran vəzifələrin yerinə yetirilməsinin zəruri şərti bu hüquq sahəsinin normalarının müvəffəqiyyətlə həyata keçirilməsidir. Burada cəza-icra hüququ normalarının qanunda nəzərdə tutulan ərazidə və zamanda tətbiqi əsas götürülməlidir, eləcə də bu normaları tətbiq edərkən nəzərə almaq lazımdır ki, hazırda cinayət cəzaları sistemi kifayət qədər yeniləşmiş və SSRİ adlı qurum süqut etdikdən sonra Azərbaycan Respublikasının ərazisində yalnız Azərbaycan Respublikasının məhkəmələri tərəfindən məhkum edilmiş şəxslər cəza çəkirlər. Müstəqilliklə əlaqədar məhkumların cəza çəkmək üçün bir respublikanın ərazisindən digərinə keçirilməsi təcrübəsinə son qoyulmuşdur. Bununla dövlətimizin ərazisində cəza çəkən şəxslərə yalnız Azərbaycan Respublikasının cəzaların icrası qanunvericiliyinin müddəaları şamil edilir. Bu müddəa CİM-in 5.1-ci maddəsində təsbit olunmuşdur. Qanunun qeyd edilən bu maddəsi CİM-in məkana görə qüvvəsi məsələsini tənzimləyir.

Cəza-icra hüququ normalarının zamana görə qüvvəsinin mühüm təcrübi əhəmiyyəti vardır. Qüvvədə olan Cəzaların İcrası Məcəlləsi bu məsələyə də aydınlıq gətirmişdir. Belə ki, CİM-in 5.2-ci maddəsində göstərilir ki, cəzaların icrası, habelə məhkumlara islah edilmə vasitələrinin tətbiqi və cəza çəkməkdən azad edilmiş şəxslərə yardım edilməsi onların icrası zamanı qüvvədə olan qanunvericiliyə uyğun həyata keçirilir.

Cəzaların icrasını tənzimləyən Azərbaycan Respublikasının CİM-in qüvvəyə minməsi məsələsini aydınlaşdırmaq üçün "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının 14 iyul 2000-ci il tarixli Qanununa müraciət etmək lazımdır. Bu

Qanunun 2-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi 2000-ci il sentyabrın 1-dən qüvvəyə minmişdir.

Ötən əsrin 90-cı illərinin əvvəllərindən etibarən cəzaların icrasını tənzimləyən qanunvericilikdə köklü islahatlar aparılmağa başlandı. Bu islahatlar əsasən məhkumların hüquqi vəziyyətinin, onların saxlanması şəraitinin humanistləşdirilməsinə yönəlmişdir. Məhz bu islahatların ilkin yekunu kimi Azərbaycan Respublikasının yeni Cəzaların İcrası Məcəlləsi qəbul edilmiş, cəzaların icrası üçün mükəmməl hüquqi təminat yaradılmışdır.

Hər bir hüquq sahəsinin özünəməxsus normalar sistemi olduğu kimi cəza-icra hüququnun da xüsusi normalar sistemi vardır. Bu normalar cəzaların icrası prosesində yaranan hüquq münasibətlərini tənzimləyir. **Cəza-icra hüququ normaları** dedikdə, hüquq münasibəti subyektlərinin və iştirakçılarının (dövlət orqanlarının, təşkilatların, ictimai qurumların, vəzifəli şəxslərin, məhkumların və ayrı-ayrı vətəndaşların) məcburi davranış modeli və ya qaydası başa düşülür. Bu normalardakı qaydaların köməyi ilə cəzanın icrası və çəkilməsi məhkumlara islah etmə tədbirlərinin tətbiqi prosesində yaranan ictimai münasibətlər tənzimlənir.

Norma, hüquq sahəsinin əsas elementi olub, onun **birinci səviyyəsini** göstərir. **İkinci səviyyəni** müəyyən qrup ictimai münasibətləri tənzimləyən normalar kompleksi təşkil edir. Buna müəyyən müddətə azadlıqdan məhrum etmənin, islah işlərinin icrası prosesində, məhkumun cəza çəkməkdən azad edilməsi zamanı yaranan münasibətləri tənzimləyən normalar kompleksini misal göstərmək olar. İkinci səviyyəni yaradan belə normalar birləşərək cəza-icra hüququnun müəyyən institutunu təşkil edir. Hüquq sahəsinin özü isə, bu strukturun ali – **üçüncü səviyyəsini** yaradır. Hüquq institutları hüquqi tənzimləmənin obyektlərini daha dəqiq müəyyən etməyə imkan verir ki, bu da hüquqyaratma fəaliyyətində mühüm əhəmiyyətə malikdir.

Hüquq normaları cəzanın icrası və məhkumlara islah təsiri tədbirlərinin tətbiqi zamanı yaranan ictimai münasibətləri tənzimləyərək, cəzanı icra edən müəssisə və orqanların, cəza çəkən məhkumların hüquq və vəzifələrini

müəyyənləşdirir, onların fəaliyyətlərini iki istiqamətdə – cəzanın icrası və islah edilmə vasitələrinin tətbiqi istiqamətlərində tənzimləyir. Cəzanın icrası və çəkilməsi prosesində tam həcmdə xəbərdarlıq tədbirləri, məhkumların hüquqlarının məhdudlaşdırılması realizə olunduğu üçün, o, hüquq normaları ilə maksimum dərəcədə tənzimlənmişdir və ictimai münasibətlərin bütün kompleksinə toxunur. Yalnız azadlıqdan məhrum etmənin icrası zamanı tam ölçüdə həyata keçirilən islah edilmə vasitələrinin tətbiqi isə hüquq normaları ilə nisbətən az həcmdə tənzimlənir. Çünki onun məzmununu psixoloji-pedaqoji təsir vasitələri təşkil edir.

Cəzanın icrası – yalnız hüquqi deyil, həm də psixoloji kateqoriyadır. Çünki o, öz qarşısına məhkumların islah edilməsi məqsədini qoyur. Onun tərbiyələndirici meyli cəza-icra hüququ normalarının psixoloji-pedaqoji məzmununu şərtləndirir. Bu normalarda psixoloji-pedaqoji təsirin bir çox prinsipləri öz əksini tapır. Öz növbəsində hüququn bu sahəsinin normalarında **«islah olunma», «nümunəvi davranış», «əməyə vicdanlı münasibət»** və s. kimi pedaqoji prinsiplər və kateqoriyalardan istifadə olunur.

Cəza-icra hüququ normalarının xüsusiyyəti ondan ibarətdir ki, bu normaların bəziləri digər hüquq sahələrindən mənimsənilmişdir. Bu, hər şeydən əvvəl azadlıqdan məhrum etməyə məhkum edilmişlərin əməyini, cəza çəkmə dövründə əmək qabiliyyətini itirdikdə onların pensiya təminatını, peşə təhsilini, azadlıqdan məhrum edilmiş şəxslərin maddi-məişət və tibbi-sanitar təminatını tənzimləyən normalara aiddir. Lakin bütün cəza-icra hüququ normalarında məcburi davranış modeli yoxdur.

Bütövlükdə hüquq sahəsinin və ya onun ayrı-ayrı institutlarının məqsədlərini, vəzifələrini, prinsiplərini müəyyən edən müəyyən anlayışların ifadə olunduğu normalar qrupu da mövcuddur. Hüquq nəzəriyyəsində bu normalar qeyri-tipik və ya xüsusi normalar kimi qeyd edilir.

Cəza-icra hüququnda xüsusi normalar norma-vəzifə, norma-prinsip və norma-anlayış (definisiya) formasında realizə olunur. Norma-vəzifəyə misal

olaraq, Cəzaların İcrası Məcəlləsinin 2.2-ci, 2.3-cü, 23.1-ci maddələrini və s. göstərmək olar.

Norma-prinsiplərə CİM-in cəzaların icrası qanunvericiliyinin prinsiplərindən bəhs edən 7-ci maddəsini aid etmək olar. Norma anlayışlara isə CİM-in 8.1-ci, 8.2-ci, 74.1-ci və s. maddələrini misal göstərmək olar. Bu maddələrdə məhkumların islah edilməsinin, onun əsas vasitələrinin və cəzaçəkmə müəssisələrində rejimin anlayışı verilmişdir.

Qeyri-tipik hüquqi göstərişlər cəzanın icrası sahəsindəki siyasətlə cəzaların icrası qanunvericiliyi arasında əlaqələndirici həlqə rolunu oynayır. Çünki, onlar norma-vəzifələrdə və norma-prinsiplərdə cəzanın icrası sahəsində dövlətin fəaliyyətinin məqsədini, prinsiplərini və strategiyasını təsbit edir. Burada həm də cinayətkarlıqla mübarizəni tənzimləyən hüquq sahələrinin qarşılıqlı əlaqəsi əks olunur.

Cəza-icra hüququ normalarını müəyyən edilən davranış qaydalarının xarakterindən asılı olaraq ayrı-ayrı növlərə ayırmaq olar. Ümumi hüquq nəzəriyyəsində bu əsas üzrə hüquq normalarının tənzimləyici, həvəsləndirici və qoruyucu normalara bölgüsü qəbul edilmişdir. Cəza-icra hüququ normalarını da bu təsnifat üzrə qruplaşdırmaq olar.

**Tənzimləyici normalar** cəza-icra hüquq münasibətlərinin subyektlərinin və digər iştirakçılarının hüquq və vəzifələrini müəyyən edir. Müəyyən edilən hüquq və vəzifələrin xarakterindən asılı olaraq onlar həm də məcburedici, səlahiyyətverici və qadağanedici normalara bölünür.

**Məcburedici normalar** subyektlərə müəyyən hərəkətlərin edilməsi tələbini müəyyənləşdirir. Misal üçün, CİM-in məhkumların əsas vəzifələrindən bəhs edən 11.3-cü maddəsindən aydın görünür ki, məhkumlar cəzanı icra edən müəssisə və ya orqanın işçi heyətinin qanuni tələblərini yerinə yetirməlidir və s. Məcburedici normanın tətbiq edilməsi, subyekt tərəfindən müəyyən hərəkətlərin yerinə yetirilməsi digər subyektlərin hüquqlarına və qanuni mənafelərinə əməl edilməsini təmin edir.

**Səlahiyyətverici normalar** subyektlərə qanunla müəyyən edilmiş çərçivədə davranış qaydası seçmək hüququ verir. Misal üçün, CİM-in 81.9-cu maddəsində qeyd edilir ki, məhkumun vəkili və ya hüquqi yardım göstərmək hüququna malik olan şəxslə görüşləri tərəflərin arzusu ilə təklikdə keçirilir.

**Qadağanedici normalar** isə əksinə qanunla hüquqazidd hərəkət kimi qiymətləndirilən müəyyən hərəkətlərdən subyektlərin çəkinməsi tələbini müəyyən edir. Qanunun normasında qadağan həm ümumi, həm də konkret formada təyin oluna bilər. Qadağanın ümumi formasına misal olaraq CİM-in 95.4-cü maddəsini göstərmək olar: **«Məhkumların əməyindən istifadə edilməsi, qadağan olunan işlərin və vəzifələrin siyahısı cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları ilə müəyyən edilir».** Konkretləşdirilmiş qadağan isə, ayrı-ayrı hərəkət növlərinə yönəlmişdir. Belə ki, CİM-in 82.1-ci maddəsində qeyd edilir ki, **«bir sovqatın çəkisi bir bağlama üçün müəyyən olunmuş çəkidən artıq olmamalıdır».** Hazırda beynəlxalq poçt daşımalarına görə bir bağlamanın, banderolun çəkisi 31,5 kq müəyyən edilmişdir. Qadağanedici normalara misal olaraq CİM-in 86.3-cü maddəsini də göstərmək olar: **«Məhkumların müharibəni, zorakılığı, ekstremizmi, terroru və qəddarlığı təbliğ edən, mili, dini və irqi ədavəti qızışdıran, habelə pornoqrafiya xarakterli nəşrləri əldə etməsi, saxlaması, onlara abunə yazılması və onları yayması qadağandır».**

Cəza-icra hüququnun **həvəsləndirici** normaları qanunda bəyənilən davranışın əldə olunmasına, məhkumların islah olunmasına yönəldilmişdir. Bu normalara CİM-in 105-ci maddəsini misal göstərmək olar. Lakin CİM-dəki həvəsləndirici normaların siyahısı qeyd edilən maddədəki tədbirlərlə bitmir.

Cəza-icra hüququnda həvəsləndirici normaların xüsusiyyəti ondan ibarətdir ki, bu normalar həvəsləndirmək hüququnu yalnız bir subyektə – cəzanı icra edən müəssisə və ya orqanın müdiriyyətinə təqdim edir. Digər subyekt – məhkum isə müvafiq həvəsləndirmə tədbirinin tətbiq edilməsini tələb edə bilməz.

**Qoruyucu normalar** cinayət cəzasının icrası prosesində yaranan hüquq münasibətlərini müdafiə edir, cəza-icra hüququnun digər normalarının realizəsini təmin edir. Belə normalara müəyyən müddətə azadlıqdan məhrum etməyə məhkum olunmuş şəxslərə tənbeh tədbirləri müəyyən edən normaları aid etmək olar (misal üçün, CİM-in 107-ci maddəsi).

Cəza-icra hüququ normaları **maddi** və **prosessual** normalara bölünür. Maddi hüquq normaları davranış qaydalarının məzmununu müəyyən edirsə, prosessual hüquq normaları bu davranışların realizə olunması qaydasını və şərtlərini tənzimləyir. Misal üçün, CİM-in 105-ci və 107-ci maddələri məhkumlara tətbiq edilən həvəsləndirmə və tənbeh tədbirlərini nəzərdə tutursa, 106-cı və 109-cu maddələr onların tətbiq edilməsi qaydasını müəyyən edir.

Cəza-icra hüququ normalarının növlərə bölgüsü yalnız ümumnəzəri əhəmiyyətə malik deyil, həm də hüquqtətbiqetmə fəaliyyətində onların predmetinin təhlilinə kömək edir. Yeni normalar yaradılarkən hüquq münasibətlərinin subyektlərinin və iştirakçılarının hüquq və vəzifələrinin daha dəqiq müəyyən edilməsi üçün onların növ mənsubiyyətini nəzərə almaq vacibdir.

Ümumi hüquq nəzəriyyəsində normanın sturkturuna hipoteza, dispozisiya və sanksiya daxil edilir. Normanın belə struktur bölgüsünə cəza-icra hüququnda da yol verilir. Normanın hipoteza hissəsində onun tətbiq edilməli olduğu şərait və ya hadisə göstərilir. Əksər hallarda hipoteza cəza-icra hüquq normasının hüdudlarından kənara çıxır. O, bir çox norma üçün ümumi ola bilər. Burada cinayət cəzasının çəkilməsi əsası kimi qanuni qüvvəyə minmiş məhkəmə hökmü nəzərdə tutulur. Bir sıra normalarda hipoteza normativ aktın özündə əks olunur. Misal üçün, CİM-in 89-cu maddəsində məhkumların cəzaçəkmə müəssisəsinin hüdudlarından kənara qısa müddətli səfərlərə çıxmasının şərtləri, 87-ci maddəsində isə məhkumlara müşayiətsiz gediş-gəliş hüququ verilməsi şərtləri göstərilmişdir.

Normanın dispozisiyasında hüquq münasibətinin subyektlərinin və digər iştirakçılarının davranış qaydası göstərilmiş, onların hüquq və vəzifələri müəyyən edilmişdir. Hüquq norması və qanunun maddəsi hökmən üst-üstə düşmür. Maddələrdə çox vaxt bir neçə norma olur. Belə ki, CİM-in 89-ci maddəsində azadlıqdan məhrum etmə yerlərinin hüdudlarından qısa müddətə kənara çıxmağın iki əsası göstərilmişdir:

a) müstəsna hallarla əlaqədar;

b) məhkuma məzuniyyət verilməsi ilə əlaqədar.

Normanın sanksiyasında isə, onun tərəfindən müəyyən edilmiş davranış qaydasının pozulmasına görə hüquq norması ilə nəzərdə tutulan nəticə nəzərdə tutulur. Cəza-icra hüququ normalarının sanksiyasını cinayət hüququ normasının sanksiyasından fərqləndirən cəhət ondan ibarətdir ki, bu sanksiya digər maddədə ola bilər, lakin CİM-in müxtəlif maddələrində müəyyən edilmiş davranış qaydalarının pozulmasına görə tətbiq edilir.

Bundan başqa CİM-də müəyyən edilmiş sanksiyalar yalnız bir subyektə – məhkuma tətbiq edilir, digər subyektlər və iştirakçılar isə inzibati və əmək hüququ normalarına müvafiq məsuliyyət daşıyırlar. Cəzaçəkmə müəssisələrinin işçi heyətinin intizam məsuliyyəti tədbirləri Cəzaların İcrası Məcəlləsində deyil, digər normativ-hüquqi aktlarda nəzərdə tutulmuşdur.

## Sual 3.
## Cəza-icra hüquq münasibətləri və onların tərkib elementləri

Cəza-icra hüquq normaları Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş bütün cinayət cəzalarının icrası və çəkilməsi qaydalarını və şərtlərini müəyyən edərək, qanunvericiliyin bu sahəsinin vəzifələrinə müvafiq olaraq cəzanın icrası prosesində yaranan ictimai münasibətləri tənzimləyir və bununla da onlara hüquqi xarakter verir.

Cəza-icra hüquq münasibətləri məhkəmə hökmünün qanuni qüvvəyə mindiyi andan yaranır və məhkum tərəfindən cəzanın çəkilib qurtarmasınadək davam edir. Bu müddəa CİM-in 6-cı maddəsindən irəli gəlir. Orada qeyd edilir ki, cəzaların icrasının və məhkumlara cinayət-hüquqi xarakterli digər tədbirlərin tətbiqinin əsaslarını məhkəmənin qanuni qüvvəyə minmiş hökmü, yaxud məhkəmənin bu hökmü dəyişən qərarları, habelə amnistiya və ya əfvetmə aktları təşkil edir.

Prosessual planda cəza-icra hüquq münasibətlərinin yaranma vaxtı hökmün surəti ilə birlikdə hakimlər və ya məhkəmənin sədri tərəfindən göndərilən hökmün icrası barədə sərəncam hesab olunur. Bu sərəncam üzərinə hökmü icra etmək vəzifəsi qoyulmuş orqanlara göndərilir. Bu andan etibarən barəsində hökm çıxarılmış şəxsin statusu dəyişir. O, artıq təqsirləndirilən şəxs deyil, məhkum sayılır.

Cəzanın icrası və çəkilməsi prosesində cəza-icra hüquq münasibətləri özünün hüquqi təbiətini dəyişmədən, məzmununu dəyişdirə bilər. Bu vəziyyətə cəzanın bir növünün digəri ilə əvəz edilməsi zamanı, azadlıqdan məhrum etməyə məhkum etmə ilə əlaqədar isə, cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi zamanı təsadüf etmək olar.

Nəzəriyyə cəza-icra hüquq münasibətlərinin aşağıdakı əsas elementlərini müəyyən etmişdir:

- hüquq münasibətlərinin subyektləri və digər iştirakçıları;
- hüquq münasibətlərinin məzmunu;
- hüquq münasibətlərinin obyektləri;
- hüquqi faktlar.

Hüquq münasibətlərinin subyektləri və digər iştirakçıları cəza-icra hüququ normaları ilə müəyyən edilmiş subyektiv hüquq və vəzifələrə malik olan hüquqi və fiziki şəxslərdir. Hüquq münasibətinin **subyektləri** dedikdə, onun daha çox həcmdə subyektiv hüquq və vəzifələrə malik olan tərəfləri başa düşülür. Onlar olmadan hüquq münasibəti yaranmır.

Cəza-icra hüquq münasibətlərinin subyektlərinə hər şeydən əvvəl cinayət cəzalarını icra edən müəssisələr və orqanlar, həmçinin cəzanı çəkən məhkumlar daxildir. Cəza-icra hüquq münasibətlərinin böyük hissəsi cəzanın icrası zamanı məhz bu subyektlər arasında yaranır. Onlar həm də cəza-icra hüququ normaları ilə nəzərdə tutulan subyektiv hüquq və vəzifələrin çox hissəsinin daşıyıcılarıdır.

Cəza-icra hüquq münasibətlərinin xeyli az həcmdə hüquq və vəzifələrə malik olan iştirakçılarına cəzanı icra edən müəssisə və orqanların fəaliyyətində qanunvericiliklə nəzərdə tutulmuş qaydada iştirak edən müxtəlif müəssisə və təşkilatlar, habelə cəzanın icrası prosesində yaranan hüquq münasibətlərində iştirak edən ayrı-ayrı vətəndaşlar aiddir. Belə vətəndaşların sırasına daxildir:

- tərbiyə müəssisələrində fəaliyyət göstərən Himayəçilik Şuraları;
- tərbiyə müəssisələri nəzdində fəaliyyət göstərən valideynlər komitəsi;
- kütləvi informasiya vasitələrinin üzvləri;
- mədəniyyət işçiləri;
- cəza çəkmə dövründə azadlıqdan məhrum edilmiş şəxslərin yanına gəlmiş qohumları;
- cəzaçəkmə müəssisələrində məhkumlarla birgə işləyən şəxslər və s.

Cəza-icra hüquq münasibətlərinin göstərilən işhtirakçıları müxtəlif həcmdə hüquq və vəzifələrə malikdirlər. Onlar içərisində Himayəçilik Şurasının və valideynlər komitəsinin səlahiyyətləri, yəni hüquqları daha genişdir. Himayəçilik Şurasının işinin təşkili və fəaliyyət qaydası Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 15 yanvar 2001-ci il tarixli 16 saylı qərarı ilə təsdiq edilmişdir.[1] Tərbiyə müəssisələrində valideynlər komitəsi CİM-in 131.2-ci maddəsinə uyğun Azərbaycan Respublikası Ədliyyə nazirinin müvafiq əmrlərinə əsasən təşkil edilir və fəaliyyət göstərir.

Bir sıra hallarda cəza-icra hüquq münasibətlərinin subyekti qismində müvafiq icra hakimiyyəti orqanı çıxış edir. Məsələn, CİM-in 89.5-ci maddəsinin tələbinə əsasən məhkumların cəzaçəkmə müəssisələrinin hüdudlarından kənara qısa müddətli səfərə buraxılması qaydası müvafiq icra hakimiyyəti orqanı, yəni Ədliyyə Nazirliyi tərəfindən müəyyən edilir.

**Cəza-icra hüquq münasibətlərinin məzmunu** dedikdə, subyektlərin və iştirakçıların faktiki davranışı, habelə onların hüquq və vəzifələrinin məcmusu başa düşülür. Onlardan hər biri müəyyən hüquqlara malikdir və bununla yanaşı vəzifələr daşıyır. Cəza-icra hüquq münasibətlərində əgər bir subyekt və ya iştirakçı vəzifə daşıyırsa, digəri bu vəzifənin yerinə yetirilməsini tələb etmək hüququna malikdir. Subyektlərin və iştirakçıların hüquq və vəzifələri qarşılıqlı əlaqədə olan sistem yaradır və vəzifələrinin məcmusu icra edilən cəzanın növündən asılıdır. Onlar cəzanın icrası prosesində realizə olunur.

Məzmun baxımından cəza-icra hüquq münasibətləri iki növə bölünür:

a) cəzanın icrası zamanı yaranan münasibətlər;

b) islah etmə vasitələrinin tətbiqi zamanı yaranan münasibətlər.

Birinci növ hüquq münasibətləri bütün növ cinayət cəzalarının icrası zamanı yaranır. İkinci növ hüquq münasibətləri isə azadlıqdan məhrum etmənin hər iki növünün icrası zamanı demək olar ki, tamlıqla, digər cəzaların icrası zamanı isə qismən yaranır.

---

[1] **M.H.Hümbətov. Məhkumun məlumat kitabı. B.,2003. S. 240-242.**

Cəza-icra hüquq münasibətlərinin obyekti hadisə və predmetlərdir, başqa sözlə, barəsində hüquq münasibəti yaranan real mövcud olan hallardır. Hüquq münasibətinin obyekti onun subyektlərinin və ya iştirakçılarının qanuni mənafeyi ola bilər. Belə ki, azadlıqdan məhrum edilmişlər üçün obyekt qismində aşağıdakılar çıxış edə bilər:

- qısa müddətə cəzaçəkmə müəssisəsindən kənara çıxmağa icazə;
- görüş, bağlama, sovqat və ya banderol alma;
- müşayiətsiz hərəkət etməyə icazə və s.

Cəzaçəkmə müəssisəsinin müdiriyyəti üçün obyekt qismində cəzaçəkmə müəssisələrində rejimin və daxili qaydanın təmin edilməsi ilə əlaqədar və s. maraqlar çıxış edir. Bununla əlaqədar olaraq subyektlərin və iştirakçıların hüquq və vəzifələrinin realizəsinin müəyyən obyektlərə yönəldiyini hesab etmək olar.

**Hüquqi faktlar.** Hüquqi faktlar cəza-icra hüquq münasibətlərinin yaranmasına, dəyişməsinə və ya xitam edilməsinə səbəb olan hərəkətlər və hadisələrdir. Hüquqi faktları bir neçə qrupa bölmək olar. Baş hüquqi fakt qismində aşağıdakı hərəkətlər və hadisələr çıxış edir:

- məhkəmə hökmünün qanuni qüvvəyə minməsi və icraya yönəldilməsi (hərəkət);
- məhkəmə tərəfindən təyin edilmiş cəza müddətinin keçməsi və ya onun icrası (hadisə);
- cəzadan vaxtından əvvəl azad etmə (hərəkət).

Qüvvəyə minmiş hökm cəzanın icrası ilə (çəkilməsi ilə) bağlı hüquq münasibətlərinin bütöv kompleksini yaradır. O, cəza-icra hüququnun çoxsaylı normalarının realizəsi mexanizmini işə salır: müttəhim məhkum statusu alır, cəzanın çəkilməsi ilə əlaqədar onda hüquq və vəzifələr kompleksi yaranır. Cəzanı icra edən müəssisə və orqanların müdiriyyətinin də öz növbəsində məhkumlara münasibətdə hüquq və vəzifələr kompleksi yaranır.

Təyin edilmiş cəza müddətinin keçməsi və ya müddətli olmayan cəzanın (cərimə, əmlak müsadirəsi) icrası eyni zamanda cəza-icra hüquq münasibət-

lərinin bütün kompleksini xitam edir və məhkum yenidən cəzanın icrası ilə əlaqədar hüquq məhdudiyyətlərindən azad olan vətəndaş statusu əldə edir.

Hüquqi faktların digər qrupunu mürəkkəb faktiki tərkibli hərəkətlər təşkil edir. Bu hərəkətlər hüquq münasibətləri kompleksinin dəyişməsinə səbəb olur. Misal üçün, cəzanın bir növünün digəri ilə əvəz edilməsi, məhkumun cəzaçəkmə müəssisəsindən həbsxanaya keçirilməsi və s.

Nəhayət, hüquqi faktların üçüncü qrupunu konkret hüquq münasibətlərinin yaranmasını, dəyişməsini və xitam edilməsini şərtləndirən faktlar təşkil edir. Misal üçün, məhkuma görüşlər verilməsi, onun haqqı ödənilməyən işə cəlb edilməsi və s.

İkinci və üçüncü qrup hüquqi faktlar əsasında yaranan və dəyişən cəza-icra hüquq münasibətləri baş hüquqi fakt əsasında yaranan hüquq münasibətlərinin bütün sisteminin tərkib hissəsidir.

Hüquqi faktların təhlili və qiymətləndirilməsi cinayət cəzasının icrası zamanı yaranan hüquq münasibətlərinin, xüsusilə də məhkumların mülkiyyəti ilə bağlı olan mülki-hüquqi, məhkumların vaxtından əvvəl şərti olaraq azad edilməsi barədə işlərə baxılması zamanı yaranan cinayət-prosessual hüquq münasibətlərinin hüquqi təbiətini fərqləndirməyə imkan verir. Müxtəlif hüquqi faktlar əsasında yaranan hüquq münasibətlərinin belə qiymətləndirilməsi hüququn müxtəlif sahələrinə aid olan konkret normaların düzgün tətbiq edilməsinə imkan verir.

# NƏTİCƏ

Beləliklə, cəzaların icrası qanunvericiliyi respublikamızın vahid qanunvericilik sisteminin tərkib hissəsi olub, cinayət cəzalarının icrası və məhkumlara islah etmə vasitələrinin tətbiqi prosesində yaranan münasibətləri tənzim edən bütün normativ hüquqi aktların məcmusu deməkdir. Bura, hazırda Respublikamızın əsas Qanunu olan Konstitusiya, Cəzaların İcrası Məcəlləsi və digər normativ aktlar daxildir.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra cəzaların icrası qanunvericiliyinin təkmilləşdirilməsi üçün mühüm addımlar atılmış, qanunvericiliyin bu sahəsinin köklü islahatı aparılmış və hazırda bu proses fəal surətdə davam etdirilir. Cəzaların İcrası Məcəlləsinin qəbulundan sonra cəzaçəkmə müəssisələrinin və işçi heyətin hüquqi statusunu müəyyən edən normativ aktların da qəbuluna böyük ehtiyac var idi. Çünki, bu aktlar olmadan onların fəaliyyətinə dair və digər məsələlərin tənzimlənməsi təcrübədə müəyyən çətinliklərin yaranmasına səbəb olurdu. «Ədliyyə orqanlarında qulluq keçmə haqqında Əsasnamə»nin qəbulundan sonra bu boşluq da aradan qaldırılmışdır..

Ümumiyyətlə, cəzaların icrası  qanunvericiliyinin formalaşması, onun günün tələblərinə və məhkumlarla davranış sahəsində mövcud olan beynəlxalq standartların tələblərinə cavab verməsi və nəhayət, cəza-icra sistemi işçilərinin bu sahədə zəruri biliklərə malik olması cəzanın qarşısında duran vəzifələrin yerinə yetirilməsinin vacib şərtidir.